# Cinsi və Şəxsiyyətlərarası Zorakılığın Qurbanları üçün İmmiqrasiya və Viza Məlumatları

Beynəlxalq tələbələrin və təqaüdçülərin immiqrasiya və viza statusları haqqında məsələlər üçün immiqrasiya üzrə vəkilin xidmətlərindən istifadə etmələri məsləhət görülür. Hazırkı sənəd hüquqi məsləhət əvəzi deyil, qanunun müəyyən tərəflərini izah etmək üçün vəsaitdir.

**Mən təcavüz qurbanı olmuşam, mənim immiqrasiya statusum tələbə şəhərciyinin ehtiyatlarından istifadə imkanlarıma təsir göstərirmi?**

Xeyr. Qanuna əsasən, cinsi və şəxsiyyətlərarası zorakılığın qurbanı olan və ya bu zorakılıqlardan xilas olan tələbələr və heyət immiqrasiya və viza statuslarından asılı olmayaraq, 1972-ci il Təhsil haqqında Qanuna Düzəlişlər (Başlıq IX) və Qadınlara qarşı Zorakılıq Haqqında Qanuna (VAWA) əsasən eyni hüquqlara malikdir.

Tələbə şəhərciyinin tibbi və hüquq məsləhəti ehtiyatları, eləcə də mövcud qonaqlama yerləri haqqında məlumatları bu veb-səhifədən əldə edə bilərsiniz: https://1is2many.okstate.edu/

Tələbə davranışı prosesi haqqında məlumatları bu veb-səhifədən əldə edə bilərsiniz: https://studentconduct.okstate.edu/code

Kollec heyəti cinayət haqqında məlumat verdiyinizə görə sizə qarşı hər hansı tədbir görməyəcək və ya sizinlə fərqli rəftar etməyəcək.

**Mən sənədli və ya sənədsiz immiqrant kimi cinayət ittihamı irəli sürə bilərəm?**

Bəli. Dövlətinizin cinsi istismar, məişət zorakılığı, görüş zamanı zorakılıq və təqiblə qorxutma kimi cinayət təyinatları haqqında məlumatları Təhlükəsizliyə dair İllik Hesabatda əldə edə bilərsiniz: https://police.okstate.edu/annual-security-reports

İttiham irəli sürmək haqqında xüsusi sualları bura ünvanlandıra bilərsiniz:

Oklahoma State University Police Department, OSUPD
104 USDA Building, Stillwater, Oklahoma 74078
405-564-6523
https://police.okstate.edu/
1is2many@okstate.edu

**Cinayət qurbanları üçün xüsusi viza və immiqrasiya statusları mövcuddur?**

Bəli. Cinsi istismar, məişət zorakılığı, görüş zamanı zorakılıq və təqiblə qorxutma qurbanları üçün U və T vizaları da daxil olmaqla, digər viza seçimləri ola bilər. Təfərrüatlar üçün immiqrasiya vəkilinizlə danışın.

| U Vizası | T Vizası |
|---|---|
| Müəyyən cinayət fəaliyyəti nəticəsində cinsi istismar, məişət zorakılığı, təcavüz, istismar və digər əlaqədar cinayətlər də daxil olmaqla ciddi fiziki və ya psixoloji təcavüz qurbanları üçün<br>-Qurban/ərizəçi cinayət fəaliyyəti kimi tərif edilən fəaliyyətin qurbanı olmalı və cinayət fəaliyyətinin araşdırılmasında və/və ya təqibində kömək etməlidir<br>-Ümumilikdə, dörd il müddətinə etibarlıdır<br>-Əlavə məlumat üçün immiqrasiya vəkilinizlə məsləhətləşin və baxın:<br><br>http://www.uscis.gov/humanitarian/victims-human-trafficking-other-crimes/victims-criminal-activity-u-nonimmigrant-status/victims-criminal-activity-u-nonimmigrant-status | İnsan alveri qurbanları üçün<br>-İnsan alveri fəaliyyət(lər)inin araşdırılması və ya təqibində əməkdaşlıq üçün hüquq-mühafizə orqanlarının müvafiq tələblərinə əməl etməli (fiziki və ya psixoloji travma səbəbindən əməkdaşlıq edə bilməmə halları istisna olmaqla) və Amerika Birləşmiş Ştatlarından kənarlaşdırıldığı təqdirdə, qurbanın/ərizəçinin ciddi şəkildə çətinlik çəkəcəyini nümayiş etdirə bilməlidir<br>-Ümumilikdə dörd il müddətinə etibarlıdır<br>-Əlavə məlumat üçün immiqrasiya vəkilinizlə məsləhətləşin, və baxın:<br><br>http://www.uscis.gov/humanitarian/victims-human-trafficking-other-crimes/victims-human-trafficking-t-nonimmigrant-status |

**Şəhərcikdə mənə əlavə məlumatlar verə bilən ofis mövcuddurmu?**

, International Students & Scholars
250 Student Union, Stillwater, OK 74078
405-744-5459
https://lcl.okstate.edu/iss/
su-iss@okstate.edu

Beynəlxalq Tələbə və Təqaüdçülərə Xidmətlər Ofisi immiqrasiya statusu haqqında faydalı məlumatlar təmin edə bilər. Qeyd edək ki, digər viza statuslarına və ya standart F-1 və J-1 tələbə vizalarından kənar digər hüquqi seçimlər üçün və ya işə götürənin sponsorluq etdiyi iş vizaları üçün ixtisaslı immiqrasiya vəkili ilə məsləhətləşin.

| Viza Seçimləri |
|---|

| F-1 və J-1 statuslu tələbələr | H-1B, O-1, E-3 və ya TN işçiləri |
|---|---|
| • Lisenziyalı müalicə həkimi, osteopatiya həkimi və ya lisenziyalı kliniki psixoloq tərəfindən təsdiq edilmiş sağlamlıq vəziyyətinə görə dərs yükünün azaldılmasının təsdiq olunması üçün seçimlər<br>• Dərs proqramından imtina etmək üçün seçimlər və nəticələri<br>• Tələbə imtina etməyi seçərsə, daha sonrakı tarixdə dərs proqramına qayıtmaq haqqında məlumatlar<br>• Müşayiətçi ər/arvad üçün seçimlər və nəticələr<br>• Viza statusunun dəyişdirilməsi ilə əlaqədar seçimlər haqqında ümumi məlumatlar.<br>• U və T vizaları haqqında ümumi məlumatlar. (İxtisaslaşmış immiqrasiya vəkilinə yönləndirmə)<br>• İxtisaslaşmış vəkilə yönləndirmə | • İcazəli iş məzuniyyəti üçün seçimlər və sizin immiqrasiya statusunuz üçün nəticələri<br>• Müşayiətçi ər/arvad üçün seçimlər və nəticələri<br>• Viza statusunun dəyişdirilməsi üçün seçimlər haqqında ümumi məlumatlar. İxtisaslaşmış immiqrasiya vəkilinə yönləndirmə<br>• U və T vizaları haqqında ümumi məlumatlar. (İxtisaslaşmış immiqrasiya vəkilinə yönləndirmə)<br>• İxtisaslaşmış immiqrasiya vəkilinə yönləndirmə<br>• Daimi ABŞ sakini olmaq üçün gözləyənlər (yaşıl kartı hələ təsdiq olunmayanlar)<br>• Həllini gözləyən, işə götürənin sponsorluq etdiyi daimi sakin müraciəti səbəbindən işi tərk etmənin təsiri;<br>• İxtisaslaşmış vəkilə yönləndirmə |

**İmmiqrasiya üzrə hüquqşünas nədir və onlar nə iş görür?**

İmmiqrasiya üzrə hüquqşünaslar immiqrasiya qanunu üzrə ixtisaslaşan lisenziyalı vəkillərdir. Onlar müştərinin vəkili kimi fəaliyyət göstərir və onları immiqrasiya agentlikləri, immiqrasiya məhkəməsi və eləcə də, immiqrasiya güzəştləri üçün ərizə verərkən təmsil edə bilərlər. Hüquqşünas ümumi məsləhət verə və immiqrasiya seçimlərini müzakirə edə bilər. Bütün hüquqşünaslar kimi, immiqrasiya üzrə hüquqşünaslar peşəkar, etika və hüquq tələblərinə əməl etməli və müştəri müzakirələrini məxfi saxlamalıdırlar.

**Haradan yerli immiqrasiya vəkili tapa bilərəm?**

| | |
|---|---|
| Milli Təhlükəsizlik İdarəsinin (DHS) bürosu olan ABŞ Vətəndaşlıq və İmmiqrasiya Xidmətləri (USCIS) fərdi şəxslərə ödənişsiz və ya ucuz hüquqi nümayəndələr tapmaqda yardım etmək üçün iki sayt təklif edir:<br>USCIS: İcmanızın Veb-səhifəsində yardım əldə edin | USCIS: Hüquqi Xidmətlər Əldə edin Veb-səhifəsi |
| İmmiqrasiya Müraciətləri Şurası (BIA) dövlət tərəfindən ödənişsiz və ya ucuz immiqrasiya xidmətləri təmin edən vəkillərin siyahısını təmin edir. | |
| Amerika İmmiqrasiya Vəkilləri Assosasiyası (AILA) tələbəyə və ya təqaüdçüyə immiqrasiya üzrə hüquqşünas tapmaqda kömək edə bilən onlayn İmmiqrasiya üzrə Hüquqşünasa Yönləndirmə Xidmətini təklif edir | |
| Amerika Vəkillər Assosasiyası həmçinin hüquqi xidmətlərin ştatlar üzrə əldə edilməsinə dair məlumatlar təmin edir | |